**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI BİZNES UNİVERSİTETİ**

# BAKI BİZNES UNİVERSİTETİNİN KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

**Elmi şuranın 13.09.2023-cü il tarixli iclasının qərarı ilə yeni məzmunda təsdiq edilmişdir (protokol № 1)**

**BAKI – 2023**

**Bakı Biznes Universitetinin**
**Keyfiyyət təminatı siyasəti**

**Giriş**

Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasətinin yekun məqsədi dövlətin təhsil siyasəti, cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli, rəqəmsal səriştələrə malik yüksək ixtisaslı kadr-mütəxəssislərin hazırlanmasından ibarətdir.

Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasəti Universitetin Strateji İnkişaf Planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. Keyfiyyət təminatı siyasəti "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na, Boloniya təhsil prosesinin müddəalarına, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə və "Avropa ali təhsil məkanında daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"a, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq normativ-hüquqi sənədlərinə, eyni zamanda "Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" kimi dövlət proqramlarının təhsilin inkişafına dair məqsəd və hədəflərinə əsaslanır.

**Keyfiyyət məqsədləri:**

Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasətinin əsas məqsədlərindən biri inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasını, o cümlədən peşə və ümumpeşə bacarıqlarının, təlimin texnoloji xəritəsinin düzgün müəyyən edilməsi, həmçinin bu təhsil proqramlarının keyfiyyətinin davamlı monitorinqinin aparılması kimi mühüm amilləri özündə ehtiva edir. Təhsilalanaların yüksək keyfiyyətli tədris vəsaitləri ilə təmin edilməsi isə onların tədrisdə daha uğurlu nəticələr əldə etməsinin başlıca

şərtlərindən biridir. Təhsil proqramları ilə yanaşı tədris-metodik təminatların qaydalar və standartlara uyğunlaşdırılması vacib hesab edilir. Bakı Biznes Universitetində bütün tədris-metodik vəsaitlər hazırlanmış əsasnaməyə uyğun tərtib edilməlidir.

Dünyada sürətlə gedən qlobal proseslərə və çağırışlara tələbə gənclərin daha operativ inteqrasiya edilməsi, peşəkar səviyyədə uğur qazanmaq üçün onlarda müasir bacarıqları formalaşdıran tələbəyönümlü tədris sisteminin qurulması da mühüm keyfiyyət məqsədi hesab edilir. Tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemi tələbələrin tədris prosesində daha fəal iştirakına şərait yaratmaqla onların motivasiyasının yüksəldilməsinə xidmət edir, onlarda özünütəhlil, müstəqil düşüncə qabiliyyətini formalaşdırmaqla yanaşı, mövcud vəziyyəti təhlil edib qiymətləndirmək qabiliyyətlərini aşılayır.

Bakı Biznes Universitetinin strateji inkişaf istiqamətlərindən biri səmərəli tələbə qəbulu kampaniyasının təşkil olunmasını, onların akademik uğurlarının izlənilməsini, təhsilalanların peşə bacarıqları üzrə sertifikatlaşmasını, diplomların beynəlxalq səviyyədə tanınmasını təmin etməkdir. Eyni zamanda tələbə və məzunların əmək bazarının müasir tələblərinə uyğun zəruri kvalifikasiyalar əldə etməsi və davamlı təkmilləşməsinə imkan verən ömürboyu təhsil mexanizminin tətbiqinə xüsusi önəm verilməkdədir.

Müasir təhsil sistemində professor-müəllim heyəti yeganə bilik mənbəyi hesab edilməsə də, digər öyrənmə resurslarından səmərəli istifadə olunmasında professor-müəllim heyətinin təcrübə, məsləhət və dəstəyinə böyük ehtiyac vardır. Ona görə də daxili keyfiyyət təminatında professor-müəllim heyətinin peşəkarlığının yüksəldilməsi, müasir bilik, bacarıq və vərdişlərə yiyələnməklə yanaşı, öyrətmə metodologiyasının daim təkmilləşdirilməsinə ehtiyac var. Bu səbədən professor-müəllim heyətinin mütəmadi, ardıcıl və sistemli şəkildə peşə bacarıqları üzrə sertifikatlaşdırılması siyasəti tətbiq edilməkdədir. Eyni zamanda tələbəyönüm-

lü təhsil, tədris və qiymətləndirmə sistemində tədrisin keyfiyyətinin yüksəldilməsi bilavasitə Universitetdə çalışan professor-müəllim heyətinin peşəkarlığı və öz vəzifə öhdəliklərini mövcud qaydalara uyğun səmərəli şəkildə yerinə yetirməsi ilə əlaqədardır. Bu baxımdan professor-məllim heyətinin qiymətləndirilməsi müvafiq qaydalara əsasən dövri olaraq həyata keçirilməlidir.

Təhsilalanların təhsil mühitini zənginləşdirmək üçün təhsil resurlarının olması, maliyyə imkanlarının mövcudluğu, sosial bazanın yaradılması, müasir rəqəmsal texnologiyaların tətbiqi, kitabxana, iaşə xidməti, tibbi-psixoloji xidmət və digər resursların mövcudluğu vacibdir. Bakı Biznes Univerisiteti bu resurslara malik olsa da, onların beynəlxalq standartlara çatdırılmasını daxili keyfiyyət təminatı siyasətinin tərkib hissəsi hesab edir. Bu resurslardan yararlanmaq üçün Universitetin tələbə dəstək sisteminin mövcud vəziyyətinin təkmilləşdirilməsi ön plandadır.

Bakı Biznes Universitetinin fəaliyyəti ilə bağlı olan bütün proqramlar və layihələrin icrasının səmərəli təşkil edilməsi, bütün maraqlı tərəflərin şəffaf, dəqiq-dürüst məlumatlarla təmin edilməsi üçün açıq informasiya sisteminin mövcudluğu inkar edilməzdir. Daxili keyfiyyət təminatının yüksək səviyyədə həyata keçirilməsi və informasiyaların idarə edilməsi üçün Universitetin bütün struktur vahidlərinin fəaliyyətlərinin mütəmadi olaraq qiymətləndirilməsi olduqca böyük əhəmiyyət kəsb edir. Bütün bölmə və şöbələrin qiymətləndirilməsi əvvəlcədən müəyyənləşdirilmiş və onların vəzifə öhdəliklərinə əsasən hazırlanmış əsas fəaliyyət göstəricilərinə uyğun aparılmalıdır. Universitetin fəaliyyətləri, təklif etdiyi təhsil proqramları, seçim meyarları, proqramlardan gözlənilən təlim nəticələri, proqramlar üzrə kvalifikasiyalar, təhsil, tədris və qiymətləndirmədə istifadə edilən prosedurlar, keçid balları, tələbələr üçün yaradılmış tədris imkanları, məzunların məşğulluq göstəriciləri və s. məlumatlar ictimaiyyət üçün açıq olmalıdır. Universitetdə məlumatların idarə edilməsi və ictimaiyyətlə əlaqələrin qurulması üçün müvafiq

sistem tətbiq olunmaqdadır. Bu sistem təsdiq olunmuş əsasnamələrə və qaydalara uyğun təşkil edilməlidir.

Universitet öz strateji inkişaf planını və keyfiyyət təminatı siyasətini həyata keçirərkən yerinə yetirilən işlərin mövcud vəziyyətini, tədrisin keyfiyyətini, göstərdiyi fəaliyyətlərin və xidmətlərin cəmiyyətin və qlobal çağırışların tələblərinə uyğunluğunu, özünün güclü və zəif tərəflərinin müəyyənləşdirilməsini, mövcud problemlərinin üzə çıxarılmasını, ehtiyacların təhlil edilməsini və qiymətləndirilməsini özündə ehtiva edən "Özünütəhlil və qiymətləndirmə" hesabatını dövri olaraq həyata keçirməlidir.

**Siyasətin nəzərdən keçirilməsi və monitorinqi**

Ali təhsildə dəyişən ehtiyacları, qlobal çağırışları, tələbləri və qabaqcıl təcrübələri nəzərə almaq məqsədilə siyasət sənədi müntəzəm olaraq nəzərdən keçirilməli və yenilənməlidir. Keyfiyyət siyasətində qeyd olunan məqsədlərə nail olmaqda irəliləyişləri izləmək və təkmilləşmə ehtiyaclarını müəyyən etmək üçün mütəmadi olaraq qiymətləndirmələr aparılmalıdır.

**Siyasətin paylaşılması**

Keyfiyyət siyasəti Bakı Biznes Univeristetinin bütün professor-müəllim və inzibati heyətinə, tələbələrə, o cümlədən bütün ictimaiyyətə universitetin rəsmi internet səhifəsi və digər kommunikasiya kanalları vasitəsiylə təqdim edilir.

**Yekun**

Bakı Biznes Universiteti hesabatlılıq və davamlı təkmilləşmə mexanizmi ilə yüksək keyfiyyət mədəniyyətinə nail olmaq üçün keyfiyyət siyasətinin kollektiv şəkildə bərabər məsuliyyət götürməklə icra edilməsini əsas tutur.